# Şəhid ailələri və qazilər ən böyük diqqətə layiqdirlər

***Vətən müharibəsi bütün müharibələr kimi, itkilər, çoxlu problemlər yaratdı. Lakin yaranmış problemlərin həllinə dövlət səviyyəsində xüsusi diqqət ayrıldı, şəhid ailələri və qazilərin müşkülünü yoluna qoymaq üçün Prezident İlham Əliyev tərəfindən sənədlər imzalandı. Qazilərin sağlamlıqlarına qovuşmaları üçün bütün imkanlar səfərbərliyə alındı, “Biz birlikdə güclüyük!”, “Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” – devizi, yeni yaradılan “Yaşat Fondu”nun, imkanlı şəxslərin dəstəyi ilə vətəndaşlarımız onlara köməyə çalışdı və həmin proses bu gün də davam edir.***

Qeyd edək ki, hazırda fəaliyyətdə olan və Prezident İlham Əliyevin imzaladığı 27 oktyabr 2021-ci il tarixli fərmanla yaradılmış “Zəfər” altsisteminə aidiyyəti qurumlar tərəfindən şəhid və şəhid ailəsi, müharibə veteranı statusu almış şəxslərə, müharibə əlillərinə dair məlumatlar daxil edilir. Bu altsistemə artıq 200 minədək şəxsə aid məlumatlar daxil edilib. “Zəfər” altsistemi dövlət orqanlarına və özəl qurumlara şəhid ailələri və qazilərə sosial dəstəyin təmin edilməsi işlərində daha operativ, sistemli, məqsədəuyğun tədbirlərin görülməsi üçün çevik məlumat mübadiləsi imkanı yaradıb.

Bu il müharibə veteranlarına Prezidentin aylıq təqaüdünün operativ şəkildə təyinatı prosesində də "Zəfər" altsistemi önəmli rol oynadı. 44 günlük Vətən müharibəsinin iştirakçısı olan və aidiyyəti qurumlar tərəfindən “Müharibə veteranı” adı verilmiş şəxslərə dair məlumatlar həmin altsistemə daxil edildi və onlara e-sistem üzərindən proaktiv qaydada təqaüd təyinatları aparıldı.

Son 4 ildə həssas qruplara yönələn müavinət və təqaüdlərin, ünvanlı sosial yardımların artırılması istiqamətində də ardıcıl olaraq mühüm addımlar atılıb. Eyni zamanda, həmin sosial ödənişlərin əhatə dairəsi xeyli genişlənib. Bu proseslər müvafiq istiqamətlər üzrə ayrılan vəsaitlərdə də ciddi artımlarla nəticələnib. 2018 – 2022-ci illərdə dövlət büdcəsindən müavinətlər üzrə ayrılan illik vəsaitin məbləği 3 dəfə, təqaüdlər üzrə ayrılan illik vəsaitin məbləği 5,1 dəfə artıb. Ünvanlı sosial yardımlar üzrə ayrılan illik vəsaitdə isə 30 faiz artım olub.

Bugünlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bir qrup Vətən müharibəsi qazisi ilə görüş keçirilib. Görüş zamanı müharibə iştirakçıları ölkəmizdə şəhid ailələri və qazilərin sosial müdafiəsi sahəsində aparılan işlərdən razı qaldıqlarını bildiriblər. Qazilər Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə müharibədən sonra şəhid ailələri və müharibə iştirakçılarının genişmiqyaslı və çevik sosial dəstək tədbirləri ilə əhatə olunması üçün görülən tədbirlərə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubov postmüharibə dövründə şəhid ailələri və qazilərin rifahının yaxşılaşdılması üçün ardıcıl şəkildə həyata keçirilən tədbirlərin bu kateqoriyadan olan vətəndaşlara xüsusi qayğıdan xəbər verdiyini vurğulayıb. Həmçinin qazilər – Qurbanəli İslamov, Namiq Seyfəddinli, Nurlan Mazanov, Allahverən Nurəliyev, Mobil Əhmədzadə, Əvəz Banipaşa, Elvin Vəliyev, Vasif Məlikov, Elşən Lalayev, Məhəmmədli Baxışov və digərləri müharibədən sonra qazilərin mənzillə, avtomobillə, işlə, reabilitasiya xidmətləri ilə təminatı və s. istiqamətlərdə aparılan işlərdən razılıq ifadə ediblər. Onlar, həmçinin qazilər hələ müalicə alarkən ziyarət edildiklərini və müalicə müddətindən dərhal sonra operativ şəkildə sənədləşmə aparılmaqla əlilliklərinin qiymətləndirilməsinin aparılmasının, Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş qazilərin son nəsil protezlərlə təmin olunmasının və onlara göstərilən digər xidmətlərin təqdirəlayiq olduğunu qeyd ediblər.

Görüşdə Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələri, müharibə iştirakçıları ilə bağlı nazirliyin sosial dəstək paketinin hazırda da davam etdirildiyi bildirilib. Qeyd edilib ki, bu sosial dəstək paketi artıq 100 min şəxsi əhatə edib, onlara 175 min xidmət göstərilib. Həmin şəxslərdən 93 min şəxsə proaktiv qaydada 103 min sosial ödəniş təyin olunub. Müalicə müddəti başa çatan qazilərdən artıq 3 min şəxsə əlillik dərəcələri və avtomatik şəkildə sosial ödənişlər təyin edilib. Bildirilib ki, Vətən müharibəsindən sonra həmin müharibədə şəhid olanların ailələrinin və qazilərinin də mənzillə təminatına başlanıb. Postmüharibə dövründə 3 min 500, ümumilikdə, ötən dövrdə 12 min 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə, 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunub. 1400 müharibə əlilinə 18 mindən çox reabilitasiya vasitəsi verilib. 5 min ailə sosial-psixoloji, 2 min 500 qazimiz reabilitasiya xidmətləri ilə təmin edilib. Artıq 11 mindən çox qazi və şəhid ailəsi üzvü olan şəxs aktiv məşğulluq proqramlarına cəlb edilib. Son 4 ildə 1450-dək, ümumilikdə, ötən dövrdə 7 min 400 müharibə əlilinə avtomobil verilib.

Görüşdə son illərdə şəhid ailələri və müharibə əlillərinə yönələn sosial ödənişlərin də dəfələrlə artırdığı vurğulanıb. Qeyd edilib ki, 29 dekabr 2021-ci il tarixli sərəncamla “Müharibə veteranı” adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdünün təyinatı prosesi icra olunub. Qeyd edilib ki, nazirlik sistemində də bir




çox əməkdaş Vətən müharibəsinin qazisidir. Həmçinin əlilliyin qiymətləndirilməsi sistemində də müharibədə iştirak etmiş həkim ekspertlər çalışır. Şəhid ailələri və qazilərimizlə bağlı sosial dəstək tədbirlərinin bundan sonra da davam etdiriləcəyi vurğulanıb.

Qeyd edək ki, ƏƏSMN tərəfindən ötən il başladılan “Məşğulluq marafonu”na artıq 644 işəgötürən qoşularaq 4 min 528 vakansiya təqdim edib. Şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədi daşıyan marafon çərçivəsində artıq 2 min 350-dək şəxs işlə təmin olunub. Onlardan 1954 nəfəri qazi, qalanları şəhid ailələrinin üzvləridir.

Şəhid ailələrinin üzvləri və Vətən müharibəsində yaralanmış qazilər marafondan faydalanaraq işlə təmin olunmaq üçün https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olaraq özləri haqqında məlumatları qeyd etməklə müraciət edə bilərlər. Xatırladaq ki, “Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi ilə təşkil edilən marafonla həssas kateqoriyaya aid olan şəxslərin məşğulluğu istiqamətində uğurlu nəticələr əldə edilib.

Bugünlərdə Dövlət Tibbi Ekspertiza və Reabilitasiya Agentliyində də şəhid ailələri, müharibə əlilləri və veteranlarının problemlərinin həlli ilə bağlı QHT rəhbərləri, vətəndaş cəmiyyəti institutları nümayəndələri ilə görüş olub. Görüş Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi sahəsində görülən işlərin ictimai müzakirəsinə həsr olunub.

Müzakirədə ƏƏSMN yanında İctimai Şuranın sədri Elşad Məmmədov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, “Qarabağ qaziləri” İctimai Birliyinin (İB) sədri Asəf Əliyev, həmin İB-nin üzvü Rey Kərimoğlu, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov, “Zəfər” Şəhid Ailələrinə Yardım İB-nin sədri Sevinc Orucova, “Azərbaycan Çernobıl Əlilləri İttifaqı” İB-nin sədri Mirhəsən Həsənov, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İB-nin sədri Emin Həsənli iştirak ediblər.

Görüşdə 44 günlük Vətən müharibəsində yaralanmış və müalicə kursunu bitirmiş hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işləri barədə məlumat verilib. Aidiyyəti qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların, ilk növbədə, əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri görülməklə, yekun olaraq Dövlət Tibbi Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən qiymətləndirmənin aparıldığı qeyd olunub. Ötən dövrdə həmin hərbçilərdən 3 minədək şəxsə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik və sosial ödənişlər təyin edildiyi bildirilib. Təqdim edilən göndəriş və şəhadətnamədə əksini tapan diaqnoz, eləcə də hazırkı sağlamlıq vəziyyəti əlillik təyinatına əsas yaradan hər bir qaziyə müvafiq əlillik dərəcəsi təyin olunduğu vurğulanıb. Görüşdə qazilərin əlilliyinin qiymətləndirilməsi prosesində vətəndaş məmnunluğunun daha da yüksəldilməsi üçün təkliflər irəli sürülüb. Eləcə də qabaqcıl dünya təcrübəsinə əsasən hazırlanaraq təsdiq edilmiş yeni meyarlardan da bəhs olunub. Əlilliyin artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, gələn ayın əvvəlindən yeni meyarlara uyğun olaraq, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında aparılacağı qeyd edilib. Bu meyarların əlilliyin qiymətləndirilməsində daha əhatəli yanaşmaya imkan verəcəyi bildirilib. Vətəndaş cəmiyyəti institutları ilə regionlarda da belə görüşlərin, müzakirələrin, maarifləndirici tədbirlərin ardıcıl təşkil edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, şəhid ailələri və qazilərin, eləcə də müharibə veteranlarının problemlərinə diqqət və qayğı təkcə dövlət tərəfindən göstərilmir. Bu işdə ayrı-ayrı iş adamları, sahibkarlar, dövlət və qeyri-hökumət təşkilatları rəhbərləri, Milli Məclisin deputatları əllərindən gələn köməyi əsirgəmir. Bugünlərdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Sumqayıt şəhərində şəhid ailələrimiz, qazilərimiz, fiziki imkanları məhdud uşaqlar, onlara rəssamlığın sirlərini öyrədən müəllimlər, eləcə də Rəsm Qalareyası əməkdaşları və Rəqs ansamblı üzvləri ilə görüşüb. Görüş zamanı iştirakçıların fikirləri dinlənilib, bəzi məsələlər yerindəcə həll olunub, bir sıra çatışmazlıqlarla bağlı isə aidiyyəti qurumlara müraciət edilib. Bildirilib ki, Vətən müharibəsində iştirak edən hər kəs bu və ya digər dərəcədə dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunublar. Qazilərin sağlamlıqlarına diqqət göstərmək, onların problemlərinin həllinə dəstək olmaq təkcə ayrı-ayrı qurumların yox, hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 10 iyun.- S.5.